# Dövlətimizin siyasəti xalq tərəfindən dəstəklənir

## MÜSAHİBİMİZ MİLLİ MƏCLİSİN DEPUTATI JALƏ ƏLİYEVADIR



***- Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dünyada baş verən böhranın səbəbinin iqtisadi deyil, siyasi proseslərlə əlaqədar olduğunu bildirdi. Bununla əlaqədar fikirlərinizi bilmək istərdik.***

- Son dövrdə dünya iqtisadiyyatında cərəyan edən proseslər bir sıra ölkələri ağır sınaqlara çəkib. Prezident İlham Əliyevin düşünülmüş sosial-iqtisadi inkişaf strategiyası bu proseslərin ölkəmizə təsirini azaltmağa imkan verib. Bütün problemlərə baxmayaraq, Azərbaycan iqtisadiyyatı dayanıqlığını qoruyub saxlayıb. Dünyanın 2008-ci ildən tanıdığı böhranın mənfi təzahürlərinin ölkəyə daha gec çatması üçün ölkəmiz profilaktik tədbirləri həyata keçirdi. Elə bu tədbirlər nəticəsində qlobal məkanda başlamış iqtisadi və maliyyə böhranının Azərbaycana toxunmasını uzun illər ləngidə bildi. Qlobal iqtisadiyyatda cərəyan edən proseslərin yaratdığı yeni çağırışlara, Azərbaycanın yerləşdiyi regionda geosiyasi gərginliyin artmasına baxmayaraq, 2015-ci ildə ölkə iqtisadiyyatının artımı, büdcə - fiskal dayanıqlılığı təmin edilib. Ümumi daxili məhsulun 1,1 faiz artım səviyyəsi əvvəlki illərdəki artımla müqayisədə az olsa da, mürəkkəb xarici iqtisadi mühit, ölkəmizin makroiqtisadi sabitliyinə artan təzyiqlər və olduqca əhəmiyyətli dərəcədə azalan xarici valyuta gəlirləri şəraitində əldə edilib.

Dövlət başçısının yürütdüyü sosial islahatların əsas istiqamətləri əhalinin məşğulluğunun təmin edilməsi, paralel olaraq sosial müdafiəsi məsələlərində ünvanlılıq prinsipinə üstünlük verilməsi, aztəminatlı ailələrin, əlillərin, ailə başçısını itirənlərin, şəhid ailələrinin və bu qəbildən olan digər şəxslərin pensiya və müavinət təminatının yaxşılaşdırılmasından, onların həyat səviyyəsinin yüksəldilməsinə şərait yaradılmasından ibarətdir.

***-Bu gün Avropanı təlatümə götürən miqrant problemi dünya ictimaiyyətinin böyük narahatlığına səbəb olub. Ancaq bu problemlərlə ölkəmiz uzun illərdir ki, təkbaşına mübarizə aparır...***

- Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu məsələyə də toxunub: "Əlbəttə, bu insanların aqibəti bizi narahat edir. Çünki biz də vaxtilə çox böyük humanitar fəlakətlə üz-üzə qalmışdıq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan çox Azərbaycan vətəndaşı qaçqın, köçkün vəziyyətinə düşmüşdür. Biz yaxşı bilirik ki, bu, nə deməkdir. O vaxt Azərbaycan bu humanitar fəlakətlə təkbaşına üz-üzə qalmışdı. Bildiyiniz kimi, adambaşına ən yüksək köçkün, qaçqın səviyyəsi Azərbaycanda olmuşdur. Ancaq buna baxmayaraq, biz lazımi tədbirlər görərək, öz daxili resurslarımıza əsaslanaraq bu vəziyyətdən çıxa bildik. Biz köçkünlərin, qaçqınların yaşayış səviyyəsini böyük dərəcədə yaxşılaşdıra bilmişik. Ancaq bu gün Avropada buna miqrant böhranı deyirlər. Mən dəfələrlə demişəm ki, bu, ilk növbədə, vətənini, əmlakını, doğmalarını itirmiş insanlar üçün böhrandır. Onlar indi Avropaya sığınacaq tapmaq, canlarını qurtarmaq üçün pənah gətirirlər. Orada da onları nələr gözləyir, hamımız yaxşı görürük. Bununla bərabər, yaranmış bu vəziyyət istər-istəməz Avropada radikal qüvvələrin, islamofobiya meyillərinin güclənməsinə gətirib çıxarır. Bu da çox təhlükəli meyildir". Gordüyünüz kimi, dövlət başçısı bizi düşündürən sualları çox dolğun cavablandırıb.

***- Bu gün dövlətimiz dünya ölkələrini cənginə alan maliyyə-iqtisadi böhranın yaratdığı çətinlikləri qabaqlayıcı tədbirlər həyata keçirməklə aradan qaldırır, makroiqtisadi sabitliyi qoruyub saxlayır. Ancaq buna baxmayaraq bu vəziyyətdən istifadə edən işbazlar da tapıldı. Onlara qarşı mübarizə tədbirlərinin gücləndirilməsi istiqamətində hansı addımlar atılır?***

- Ölkə Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısının məlum devalvasiyadan, manatın "üzən məzənnə"yə keçməsindən sonra yaranmış vəziyyətlə bağlı çox mühüm və çox əhəmiyyətli mesajları, tapşırıqları oldu.

Ona görə hesab edirəm ki, bütün aidiyyəti dövlət qurumları, icra strukturları, məsul şəxslər bu tapşırıqlardan, verilən mesajlardan ciddi nəticələr çıxarmalı və onların qarşısında qoyulan vəzifələrin həlli ilə daha ciddi məşğul olmalıdırlar.

Dövlət başçısının vurğuladığı kimi, süni qiymət artımı hallarının və buna yol verənlərin qarşısının inzibati və hüquqi yollarla alınması yönündə zəruri addımların atılması vacibdir. "Süni qiymət artımına heç cür imkan verməmək olmaz. Bu, insanların cibinə girmək deməkdir. Buna yol verənlər mütləq cəzalarını almalıdır." Ona görə inanıram və qəti əminəm ki, vətəndaşlar arasında ciddi narahatlıqların yaranmasına səbəb olmuş süni qiymət artımı ilə və qiymətləri artıran "işbazlar"la bağlı addımlar özünü çox da gözlətməyəcək.

"Əsl siyasət konkret real iş görməkdir" devizinə sadiq qalan cənab İlham Əliyevin xalqa layiqli rəhbərlik missiyasının qayəsində hər bir vətəndaşın maraq və mənafeyini maksimum dərəcədə təmin edən mükəmməl idarəetmə sisteminin yaradılması istəyi dayanır. Həmin məqsədin reallaşdırılmasını, ümumən ölkənin üzləşdiyi bütün problemlərin həllini haqlı olaraq sosial-iqtisadi problemlərin aradan qaldırılmasında, yüksək tərəqqidə görən dövlət başçısı bu sahədə inamlı addımlar atır.

***- Hökumət azad iqtisadi münasibətlərə, rəqabətə, özəl mülkiyyətçiliyə və sahibkarlığın inkişafına zəruri kömək göstərməklə yanaşı, cəmiyyətdə himayəyə, dəstəyə ehtiyacı olan təbəqəni də nəzərdən qaçırmır. Bu mənada Azərbaycan brendi olan "ASAN xidmət"in şəffaflığın qorunmasında xidmətlərini qeyd etməmək mümkün deyil...***

- Həmişə qeyd olunduğu kimi, korrupsiyaya qarşı mübarizə məqsədilə yaradılan və ölkəmizin brendi olan "ASAN xidmət" artıq özünü doğrultmaqla Azərbaycanın sınanmış təcrübəsi kimi təbliğ olunur. Bu xidmət ölkədə maliyyə şəffaflığının yaradılmasına, bürokratik əngəllərin aradan qaldırılmasına da imkan yaradır. Prezidentin tövsiyələrindən biri də budur ki, bu xidmətin əhatə dairəsi genişlənsin, mənimsəmələrin aradan qaldırılması üçün vətəndaşların ən çox müraciət etdikləri sahələrin fəaliyyəti də bu xidmətin icra mexanizminin səlahiyyətlərinə aid edilsin. Bu gün Azərbaycan dövləti dünya ölkələrini cənginə alan maliyyə-iqtisadi böhranın yaratdığı çətinlikləri qabaqlayıcı tədbirlər həyata keçirməklə aradan qaldırır, makroiqtisadi sabitliyi qoruyub saxlayıb. Dövlətin vətəndaşların həyati tələbatlarının ödənilməsinə göstərdiyi qayğı özünü bilavasitə sosial təminat sistemində büruzə verir. Vətəndaşların sosial ehtiyaclarının dolğun şəkildə ödənilməsinə xidmət edən iqtisadi siyasət ümumən insan amilinin inkişafına təkan verir. Hökumət azad iqtisadi münasibətlərə, rəqabətə, özəl mülkiyyətçiliyə və sahibkarlığın inkişafına zəruri kömək göstərməklə yanaşı, cəmiyyətdə himayəyə, dəstəyə ehtiyacı olan təbəqəni də nəzərdən qaçırmır. Lisenziyaların ləğv edilməsi, gömrük sektorunda islahatların sürətləndirilməsi, sahibkarlıq müəssisələrində qanunsuz yoxlamalar keçirən struktur rəhbərlərinin ciddi cəzalandırılması, bu tip yoxlamalara iki il müddətinə moratorium qoyulması, un və un məmulatlarının satışı və istehsalının Əlavə Dəyər Vergisindən azad edilməsi, süni qiymət artımı ilə bağlı mübarizə mexanizmlərinin işə salınması vəziyyətdən çıxmaq üçün atılmış ilk praktik addımlardır. Bu addımlar artıq özünün ilkin müsbət nəticəsini də verib, bazarlarda, marketlərdə xeyli ucuzlaşma olub. Ucuzlaşma prosesi tətbiq edilən iqtisadi mexanizmlərin nəticəsi olaraq davamlı xarakter daşımaqdadır.

***- Müxtəlif mədəniyyətlərin və dinlərin qovuşuğunda yerləşən Azərbaycanın bu gün beynəlxalq münasibətlər sistemində yeri və rolunu necə görürsünüz?***

- Azərbaycan Şərqin və Qərbin qovuşuğunda yerləşən, müxtəlif mədəniyyətlərin, sivilizasiyaların qarşılıqlı anlaşma şəraitində bir araya gəldiyi nadir ölkələrdəndir. Burada tarixən heç vaxt milli və dini zəmində ayrı-seçkilik, qarşıdurma baş verməyib, qarşılıqlı etimada, hörmətə əsaslanan mütərəqqi milli-mədəni, dini münasibətlər mövcud olub. Ona görə bu gün sürətli inkişaf yolunda olan respublikamız həm də müxtəlif mədəniyyət və dəyərlərə malik olan xalqların, dinlərin nümayəndələrinin mehriban şəraitdə yaşadığı məkandır.

Azərbaycanın çoxkonfessiyalı və çoxmədəniyyətli ölkə olması, tolerant sistemin formalaşması, müvafiq yerli, seçkili və hökumət qurumlarında müxtəlif millətlərdən olan Azərbaycan vətəndaşlarının təmsilçiliyi, müxtəlif mədəniyyətliliyin inkişafını stimullaşdıran qanunvericiliyin mövcudluğu və bir çox digər səbəblər ölkəni multikulturalizm ətrafında gedən beynəlxalq diskussiyaların reallaşdırıldığı arenaya çevirir. Multikulturalizm, eyni zamanda cəmiyyətlərin modernləşməsi, bəşəri dəyərlərin mədəniyyətlər arasında bölüşdürülməsi və birgə elmi nailiyyətlərin əldə edilməsi deməkdir. Bu isə xalqların inkişafı və gələcəyinin qarantıdır. Məhz birgə elmi nailiyyətlər və intellektual potensialın tətbiqi ilə bəşəriyyətdə sülhə və inkişafa nail olmaq olar.

**Şəmsiyyə Əliqızı,**
**Şəfiqə Dadaşova,**
**Tural Əhmədov (foto)**
***"İki sahil"***